

# Şərq qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 49 (23.936)

*12 mart 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə bölgədə yaranmış yeni reallıqların əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığı qeyd edilib. Xüsusilə nəqliyyat sahəsində bu gün imzalanacaq Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun önəmi vurğulanıb. Bu, dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirilib. Vurğulanıb ki, bu gün Şimal-Cənub Nəqliyyat Dəhlizinin bir qolu olacaq yeni nəqliyyat yolunun işə salınması istiqamətində çox mühüm addımlar atılır və bu həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində əməkdaşlıq üçün gözəl zəmin yaradacaq.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Gürcüstanın ədliyyə naziri Rati Breqadzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

*Dövlət proqramı icra olunur*

# Baytarlıq xidmətinin inkişafı diqqətdə saxlanılır

*Muxtar respublikada ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi istiqamətində dövlət dəstəyinin həcminin ilbəil artması aqrar sektorun inkişafı üçün mühüm zəmin yaratmışdır. Digər kənd təsərrüfatı sahələrində olduğu kimi, heyvandarlıqda da intensiv metodların tətbiqi özünütəminat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olmuşdur. Ətlik-südlük istiqamətli təsərrüfatların yaradılması, onların müasir avadanlıqlarla təmin olunması heyvandarlığın inkişafına təkan vermişdir. Heyvanlar arasında xəstəliklərin qarşısının alınması isə baytarlıq xidmətinin təşkili ilə birbaşa bağlıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Baytarlıq xidmətinin təşkili fədakarlıq və zəhmət tələb edir. Muxtar respublikada epizootik tədbirlərin vaxtında həyata keçirilməsinin nəticəsidir ki, heyvanlar arasında infeksion xəstəlik yoxdur”.***

Ət və ət məhsulları insanın qida rasionunda mühüm yer tutur. Buna görə də keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları istehsalında baytarlıq xidmətinin təşkili əsas vəzifələrdəndir. Bu sahədə görülən işlər həm iqtisadi artımın təmin olunmasına, həm də əhalinin sağlamlığının qorunmasına şərait yaradır. Qazanılan nailiyyətlərin əsasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı”nın uğurla icra olunması dayanır.

Proqramın icrasından gözlənilən nəticələrdən biri heyvanların cins tərkibinin yaxşılaşdırılması hesabına intensiv yolla məhsul istehsalının artırılmasıdır. Bu məqsədlə süni mayalanma tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması ilə bağlı tədbirlər nəzərdə tutulmuşdur. Ötən müddətdə görülən işlər öz bəhrəsini vermiş, 2021-ci ildə Naxçıvanda Süni Mayalanma Mərkəzinin yaradılması başa çatdırılmışdır. Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə mərkəzin açılışı olmuşdur. Mərkəzin tikintisi 2 hektar ərazidə aparılmışdır. Burada inzibati, karantin binaları, baytarlıq klinikası, laboratoriya otağı, toxumlama sahəsi, tövlə, yem anbarı, açıq havada yemsaxlama sahəsi vardır. Müasir avadanlıqlarla təmin olunmuş mərkəzdə toxum bankı yaradılmışdır ki, ötən il burada 35 min 678 doza törədici toxum istehsal edilmişdir.

2021-ci ildə Dövlət proqramının icrası istiqamətində muxtar respublikada 12 min 52 baş iribuynuzlu heyvanda səyyar süni mayalanma işləri aparılmışdır ki, bu da 2020-ci illə müqayisədə 211 baş çoxdur. Bütün bunlarla yanaşı, süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyaların ödənilməsi də davam etdirilmişdir. Ötən il bu məqsədlə 6 min 601 sahibkara 1 milyon 282 min 400 manat məbləğində subsidiya verilməsi heyvandarlığın inkişafına göstərilən dövlət dəstəyinin ən mühüm təzahürlərindən biridir.





Qeyd olunan sahəyə göstərilən dövlət qayğısı yalnız maliyyə dəstəyi ilə məhdudlaşmır. Baytarlıq sahəsində maddi-texniki bazanın gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər də keyfiyyətli ət və süd məhsullarına olan tələbatın ödənilməsinə yönəlmişdir. Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə keçirilən tədbirlərdə 9 kənd mərkəzində baytarlıq məntəqələri istifadəyə verilmişdir. Eyni zamanda ötən il tikintisi davam etdirilən Kəngərli Rayon Baytarlıq İdarəsi üçün yeni inzibati binanın cari il fevralın 22-də açılışı olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Epidemioloji vəziyyətin sabit olması üçün iki əsas sahə diqqətdə saxlanılmalıdır: sağlam mühit və sağlam qida. Bunlar vacib sahələrdir. Ona görə ki, əhalinin sağlamlığı bu sahələrin inkişafından asılıdır. Sağlam mühit və sağlam qida olmadan insanların sağlamlığı təmin oluna bilməz. Ona görə də muxtar respublikada həm gigiyena və epidemiologiya, həm də baytarlıq təbabəti sahələrində lazımi iş şəraiti yaradılıb, avadanlıqlar və laboratoriyalar istifadəyə verilib, Dövlət proqramları qəbul olunub”.***

Əhalinin sağlamlığının qorunmasında keyfiyyətli ət və süd məhsullarının istehsalı ilə yanaşı, tələf olmuş heyvan cəsədlərinin ətraf mühitə atılmasının qarşısının alınması da mühüm rol oynayır. Bu tədbirlərin davamlı xarakter alması müxtəlif xəstəliklərin yaranması ehtimalını minimuma endirir. Ötən il muxtar respublikada 36 baş iribuynuzlu, 161 baş xırdabuynuzlu, 15 baş quş və 2 baş təkdırnaqlı yoluxmayan daxili xəstəliklərə və digər müxtəlif səbəblərə görə tələf olmuşdur. Ölmüş heyvanların cəsədləri xüsusi ayrılmış ərazilərdə texniki vasitələrlə qazılmış xəndəklərdə dərmanlanaraq basdırılmışdır.

Təhlükəsiz heyvandarlıq məhsullarının istehsalı zərurəti heyvan xəstəliklərinin xüsusi nəzarətdə saxlanılmasını şərtləndirir. Bu məqsədlə həyata keçirilən planlı analiz və müayinələr epizootik sabitliyi təmin edir. Digər tərəfdən heyvanlarda profilaktik vaksinasiya tədbirlərinin aparılması baş verə biləcək xəstəliklərin vaxtında qarşısını almağa imkan yaradır. Ötən il proqramın icrası məqsədilə muxtar respublikada fəaliyyət göstərən baytarlıq laboratoriyalarında bruselyoz xəstəliyinə qarşı 21 min 379 baş iribuynuzlu, 71 min 133 baş xırdabuynuzlu, 29 min 733 baş qoçdan qan nümunələri götürülərək yoxlanılmışdır. Diaqnostiki olaraq vərəm xəstəliyinə görə 28 min 780 baş iribuynuzlu, epididimitə görə 29 min 733 baş qoç, manqo xəstəliyinə görə 1633 baş təkdırnaqlıda müayinələr aparılmışdır. Bu dövrdə qarayara xəstəliyinə qarşı 165 min 567 baş iribuynuzlu, 999 min 871 baş xırdabuynuzlu, 5 min 430 baş təkdırnaqlı, dabaq xəstəliyinə qarşı 253 min 738 baş iribuynuzlu, 499 min 109 baş xırdabuynuzlu, bruselyoz xəstəliyinə qarşı 479 baş iribuynuzlu, 299 min 451 baş xırdabuynuzluda peyvəndləmə işləri aparılmışdır. Eyni zamanda emkar xəstəliyinə qarşı 198 min 851, nodulyar dermatit xəstəliyinə qarşı 83 min 613, aueski xəstəliyinə qarşı 8 min 975, leptospiroz xəstəliyinə qarşı 19 min 891, pasterelyoz xəstəliyinə qarşı 162 min 271 baş iribuynuzlu, bradzot xəstəliyinə qarşı 249 min 352, çiçək xəstəliyinə qarşı 359 min 360 baş xırdabuynuzlu heyvan, nyukasl xəstəliyinə qarşı 898 min 24 baş quşda vaksinasiya tədbirləri həyata keçirilmişdir. Bu tədbirlərin aparılmasını yerində yoxlamaq məqsədilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında, ümumilikdə, 31 reyd keçirilmişdir.




Heyvan xəstəlikləri ilə mübarizə sahəsində xüsusi önəm kəsb edən məsələlərdən biri də baytarlıq preparatlarının əlçatan olmasıdır. Bu məqsədlə həyata keçirilən maarifləndirmə tədbirləri nəticəsində muxtar respublikada heyvandarlıq – arıçılıq əczaxanalarının sayı artmaqda davam edir. Ötən il yeni əczaxanaların açılması üçün müraciət etmiş 4 şəxsə müvafiq lisenziyalar verilmişdir. Eyni zamanda baytarlıq preparatlarının, yemlərin, yem əlavələrinin, biostimulyatorların, hormonların təhlükəsizliyinə və keyfiyyətinə nəzarətin təşkili də diqqətdə saxlanılmış, muxtar respublikada fəaliyyət göstərən əczaxanalarda 88 reyd keçirilmişdir.

Qabaqlayıcı tədbirlər içərisində ekoloji təmizliyə nəzarətin təşkili və dezinfeksiya işlərinin vaxtında aparılması da xüsusi yer tutur. Dezinfeksiya tədbirləri xəstəlik törədicilərinin və zərərvericilərin məhv edilməsinə yönəlmişdir. Dövlət proqramının icrasına uyğun olaraq yaylaqlarda bu istiqamətdə işlərin aparılması davam etdirilmişdir. Ümumilikdə, 2021-ci ildə muxtar respublikada 6 yurd və 16 yaylağı əhatə edən 719 min 46 kvadratmetr ərazi dezinfeksiya olunmuşdur.

“Həkimlər yalnız insanların müalicəsi ilə məşğuldurlar. Baytarlar isə bütün bəşəriyyəti xəstəliklərdən xilas edirlər” ifadəsi digər sosial-iqtisadi sahələrdə olduğu kimi, baytarlıq sahəsində də təhsil amilinin mühüm əhəmiyyətə malik olduğunu aydın şəkildə göstərir. Peşəkar kadrların yetişdirilməsi yaradılan infrastrukturdan maksimum istifadə olunmasına və qida təhlükəsizliyinin təmin edilməsinə gətirib çıxarır. Proqramın icrası məqsədilə ötən ilin fevral və aprel aylarında Türkiyədən dəvət olunan mütəxəssis tərəfindən muxtar respublikada fəaliyyət göstərən 19 süni mayalanma texnikinə praktik dərslər keçilmişdir. İl ərzində Dövlət Baytarlıq Xidməti əməkdaşlarının müvafiq ixtisasda təhsil alan Naxçıvan Dövlət Universitetinin tələbələri ilə 8, Dövlət Texniki Kollecinin tələbələri ilə 12 görüşü təşkil olunmuşdur. Həmçinin ilin müxtəlif dövrlərində müvafiq tədbirlər planına uyğun olaraq tələbələrin xidmətdə və Süni Mayalanma Mərkəzində istehsalat təcrübəsi keçmələri təmin edilmişdir.

Kənd təsərrüfatında sığortanın tətbiqi heyvandarlıq məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən subyektlərin də gəlirlərinin mühafizə olunması deməkdir. Bu istiqamətdə müqavilələrin bağlanması müvafiq sahədə fəaliyyətin uzunmüddətli olmasına imkan verir. Ötən il Dövlət Proqramının icrasına uyğun olaraq heyvandarlıq üzrə 3 min 4 sığorta müqaviləsi bağlanmışdır.

*İcrası davam etdirilən Dövlət proqramı çərçivəsində görülən işlər bir daha təsdiqləyir ki, dövlətin əsas məqsədi hər bir vətəndaşın sağlam və təhlükəsiz həyat tərzinə, əhalinin qəbul olunmuş normalara uyğun ərzaq məhsulları ilə təminatına nail olmaqdır.*

**“Şərq qapısı”**

# Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin konfransı keçirilib

*Martın 11-də Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin konfransı keçirilmişdir.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransın gündəliyində duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransın gedişi zamanı əvvəlcə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin 5 illik fəaliyyətinə dair hesabatı dinləniləcək, daha sonra komitənin yeni İdarə Heyətinin üzvləri və komitənin sədri seçiləcək, Nəzarət-Təftiş Komissiyasının tərkibi müəyyənləşəcəkdir.

Konfransın gündəliyi qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədri Yaşar Vəliyevin hesabatı dinlənilmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin maddi-texniki bazası yaxşılaşdırılmış, xidməti və yük avtomobilləri verilmiş, əməkdaşların səmərəli fəaliyyətinə hərtərəfli şərait yaradılmışdır. Son illər kollektivin sosial təminatının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüş, komitənin işçilərinin əməkhaqları artırılmışdır. Komitənin 1 şəhər, 7 rayon bölməsi, 580 ilk təşkilatı və 37 mindən artıq üzvü vardır. Hesabat dövründə komitə öz fəaliyyətini Nizamnamə və iş planına əsasən qurmuş, İdarə Heyətinin iclasları keçirilmiş, işdə olan nöqsanlar və qarşıda duran vəzifələr müəyyənləşdirilmiş və onların aradan qaldırılması üçün tədbirlər görülmüşdür. Yaşar Vəliyev göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin üzvləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Hesabat məruzəsindən sonra İdarə Heyətinin yeni tərkibi seçilmişdir.

Komitənin İdarə Heyətinin üzvləri Cavidan Həsənova və Qurban Tarverdiyev çıxış edərək Vəliyev Yaşar Vəli oğlunun Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədri vəzifəsinə namizədliyini irəli sürmüşlər.

Təklif səsə qoyularaq qəbul olunmuş və Yaşar Vəliyev Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədri seçilmişdir.

Yaşar Vəliyev minnətdarlıq edərək göstərilən etimadı doğrultmaq üçün səylə çalışacağını bildirmişdir.

Daha sonra Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin Nəzarət-Təftiş Komissiyasının tərkibi seçilmiş, konfransın qərarı qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransda çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələr kimi, Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi də hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş, fəaliyyət üçün əlverişli şərait yaradılmışdır. Komitənin maddi-texniki bazası yaxşılaşdırılmış və istifadəsinə xidməti avtomobillər verilmişdir. Eyni zamanda əməkdaşların sosial təminatının gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamlarına əsasən Qızıl Aypara Komitəsinin işçilərinin əməkhaqları artırılmışdır.

Ülvi Hüseynli bildirib ki, göstərilən dövlət qayğısına baxmayaraq, Qızıl Aypara Komitəsi ötən 5 ildə fəaliyyətində nöqsanlara yol vermişdir. Belə ki, şəhər və rayon bölmələrinin, eləcə də ilk təşkilatların fəaliyyətinə nəzarətin artırılması, görülən işlərin vaxtlı-vaxtında müzakirəsi, aid təşkilatlarla əməkdaşlıq edilməsi, tibbi-sosial, humanitar və digər xidmətlərin göstərilməsinə hazırlıq düzgün təşkil olunmamışdır. Qarşıdakı dövrdə şəhər və rayon bölmələrinin sədrlərinin iştirakı ilə rüblük və illik fəaliyyətlər müzakirə edilməli, idarə və təşkilatlarda ilk təşkilatların yaradılması işi davam etdirilməli, komitənin fəaliyyəti, ideya və vəzifələri təbliğ olunmalı, kütləvi informasiya vasitələri ilə əlaqələr qurulmalıdır. Komitənin şəhər və rayon bölmələrində gənclər və könüllülərlə birlikdə təbii fəlakətlər zamanı itkin düşənlərin axtarışı ilə bağlı seminarlar keçirilməli, humanitar və xeyriyyə xarakterli tədbirlər təşkil olunmalıdır.

Ülvi Hüseynli Ali Məclis Sədrinin qarşıya qoyduğu vəzifələrin icrasında kollektivə uğurlar arzulamışdır.

**“Şərq qapısı”**

*12 mart Daxili Qoşunlar Günüdür*

# Daxili Qoşunlar ictimai sabitliyin təminatçısıdır



*Martın 12-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 30 il ötür. Ümummilli liderimiz Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə hər il mart ayının 12-si Azərbaycan Respublikasının “Daxili Qoşunlar Günü” kimi qeyd olunur.*

1991-ci ilin dekabr ayında keçmiş SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində yerləşən 5-ci diviziyası buraxılmış və şəxsi heyətinin ümumi sayı 2500 nəfər olan üç hərbi hissə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyinə verilmişdir. 1992-ci il martın 12-də Daxili Qoşunların hərbi hissələri ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizəyə qoşulmuş, şəxsi heyət döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərmişdir.

Azərbaycanda Daxili Qoşunların formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin diqqət və qayğısı ilə Daxili Qoşunlar böyük inkişaf yolu keçmiş, hərbi hissələrin müasir standartlar səviyyəsində qurulması istiqamətində tədbirlər görülmüş, bu sahənin fəaliyyətini tənzimləyən hüquqi baza yaradılmışdır. 1994-cü il fevralın 8-də qəbul edilmiş “Daxili Qoşunların statusu haqqında” Azərbaycan Respublikasının Qanunu Daxili Qoşunların əsas funksiyalarını, vəzifələrini, fəaliyyət prinsiplərini müəyyən etmişdir. Daxili Qoşunların xalqın və dövlətin layiqli müdafiəçisinə çevirməyin vacibliyindən danışan ulu öndərimiz demişdir: ***“Daxili Qoşunlarda yüksək vətənpərvərlik ruhu vardır. Bizim Silahlı Qüvvələrimizdə, eyni zamanda Daxili Qoşunlarda Azərbaycanın dövlətçiliyinə, Azərbaycanın Ali Baş Komandanına yüksək sədaqət ruhu formalaşıb”.***

Ulu öndərimiz tərəfindən əsası qoyulan ordu quruculuğu prosesi bu gün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında müdafiə təhlükəsizliyinin və sabitliyin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. ***“Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Vətəndaşlarımızın təhlükəsizliyi də dövlət tərəfindən təmin edilir və bundan sonra da ediləcəkdir. Bu istiqamətdə Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir”***, – deyən dövlət başçısının diqqət və qayğısı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikadakı ordu, birləşmə və hissələri kimi, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası da böyük təşkilatlanma və inkişaf yolu keçmiş, bu sahənin maddi-texniki bazası gücləndirilmişdir.







1995-ci il aprel ayının 10-da Daxili Qoşunların Naxçıvandakı “N” hərbi hissəsi, 2002-ci il dekabr ayının 4-də hərbi hissənin bazasında Daxili Qoşunların Naxçıvan Alayı, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 sentyabr tarixli Sərəncamı ilə isə Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası yaradılmışdır. Ötən dövrdə briqada qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmiş, ictimai asayişin qorunmasında zəngin xidməti təcrübə toplayaraq hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsində mühüm nailiyyətlər qazanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, genişmiqyaslı quruculuq işləri həyata keçirilmiş, hərbi hissə abad və müasir şəhərciyə çevrilmişdir. Ordu quruculuğu sahəsində aparılan məqsədyönlü islahatlar və mühüm əhəmiyyətə malik Dövlət proqramlarının reallaşdırılması nəticəsində hərbi hissə yüksək standartlar səviyyəsində təchiz olunmuşdur. Üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşaraq, fəaliyyətini təmin etməklə qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi əsasında quran hərbi hissə Naxçıvan Muxtar Respublikasında daxili sabitliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunub qorunmasında fəal iştirak edərək yüksək peşəkarlıq, döyüş və mənəvi-psixoloji hazırlığa malik olduğunu nümayiş etdirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muxtar respublikada Azərbaycan Respublikası Silahlı Qüvvələrinin digər birləşmə və bölmələri kimi, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının da xidməti-döyüş fəaliyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır, hərbi hissənin maddi-texniki bazası ilbəil gücləndirilir... Son illər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən ordu, birləşmə və hissələrinin birgə taktiki təlimlərində daxili qoşunların şəxsi heyətinin də iştirakı və verilən tapşırıqların peşəkarlıqla icrası bu hərbi hissədə əldə olunan nailiyyətlərin daha bir ifadəsidir”.***

Bu gün şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Hərtərəfli diqqət və qayğı sayəsində, hərbi qulluqçuların maddi və sosial rifah halının artırılması istiqamətində əməli tədbirlər həyata keçirilmişdir. Məhz bu tədbirlərin bariz nümunəsidir ki, 2021-ci ildə zabit-gizir ailələrinin istifadəsindəki təmirə ehtiyacı olan 38 mənzildən ibarət 5 mərtəbəli yaşayış binası əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Müasir standartlar səviyyəsində qurulan yaşayış binasının istifadəyə verilməsi hərbi qulluqçulara və onların ailə üzvlərinə olan diqqət və qayğının real təzahürüdür. Aparılan islahatlar, döyüş hazırlığının yüksəldilməsi, maddi-texniki təminat və hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması qarşıya qoyulan xidməti vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir.



Peşə hazırlığının və təlimin keyfiyyətinin daim yüksəldilməsi, nümunəvi nizam-intizama nail olunması və muxtar respublikada dayanıqlı olan ictimai sabitliyin qorunması bu gün “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının qarşısında duran əsas vəzifələrdir. Şəxsi heyətin yeni silahlardan istifadə qaydaları üzrə bilik və bacarığı təkmilləşdirilir, müntəzəm olaraq metodik təlim toplantıları, səhra çıxışları və döyüş atışlı taktiki təlimlər keçirilir.

Bu gün “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan güclü hərbi birləşməyə çevrilmişdir. Naxçıvan Qarnizonu Qoşunlarının “2021-ci tədris ilinə uzlaşma planına” uyğun keçirilən təlimlərdə yüksək peşəkarlıq fəaliyyəti, həmçinin Türkiyə Respublikası Silahlı Qüvvələri ilə birlikdə keçirilən “Sarsılmaz Qardaşlıq – 2021” döyüş atışlı birgə taktiki təlimi bunu bir daha təsdiq etdi. Həmin təlimlərdə fəal iştirak edən “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirdi.

Tariximizə qızıl hərflərlə yazılan 44 günlük şanlı Vətən müharibəsində qazanılan möhtəşəm qələbə illərdir, həyata keçirilən ideoloji işin, misilsiz yurd sevgisinin və yüksək vətənpərvərliyin məntiqi nəticəsi idi. “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası da bu istiqamətdə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, ərazi bütövlüyümüzün bərpa olunmasında xüsusi rol oynamışdır.

Ümummilli liderimizin ideyalarına sadiq qalan Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, sabitliyin və ictimai asayişin keşiyində mətinliklə dayanacaq, cəmiyyətin və dövlətin mənafeyini, eləcə də vətəndaşların hüquq və azadlıqlarını etibarlı qoruyacaqdır. Ölkə başçısının da dediyi kimi: ***“Daxili Qoşunlar inkişafdadır. Daxili Qoşunların təminatı yüksək səviyyədə həll edilir. Ən müasir texnika, döyüş avadanlıqları gətirilir. Daxili Qoşunlar böyük qüvvədir və əlbəttə, Daxili Qoşunların da cəmiyyətdə çox böyük funksiyaları vardır. Hər an, hər zaman Daxili Qoşunlar sabitliyin, asayişin keşiyində olmalıdırlar və belə də olacaqdır”.***

**Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası**

*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilən demokratik və hüquqi islahatlar nəticəsində son illər böyük sosial-iqtisadi tərəqqi əldə olunmuş, dinamik inkişaf həyatımızın bütün sahələrini əhatə etmişdir. Bu tərəqqi demokratik təsisatların möhkəmlənməsinə, səmərəli idarəetmə mexanizminin yaradılmasına, demokratik ənənələrin təkmilləşərək həyat normasına çevrilməsinə şərait yaratmışdır. Bu gün dövlətin və cəmiyyətin maraqlarının düzgün uzlaşdırılması sayəsində dövlət idarəçiliyinin tərkib hissəsi olan yerli özünüidarəetmə təkmilləşmişdir. Ümummilli lider Heydər Əliyev yerli özünüidarəetmənin yaradılmasını ölkəmizdə gedən demokratiya prosesinin mühüm bir hissəsi hesab etmiş, onun inkişafına çox böyük qayğı göstərmiş, bələdiyyələrlə bağlı dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmişdir. Bu gün bələdiyyələr getdikcə daha da formalaşır, maliyyə və digər imkanları genişlənir. Bu sahədə əldə olunan uğurlar isə dövlətin bilavasitə qayğısı və diqqəti nəticəsində qazanılır.*

# Muxtar respublikada bələdiyyə fəaliyyətinin inkişafına diqqət göstərilir

Ötən dövrdə kollegial orqan olan bələdiyyələrin inkişafı da ölkə başçısı cənab İlham Əliyevin diqqətində olmuş, onların səlahiyyətlərinin artırılması ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Yerli özünüidarə sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə dövlətimiz tərəfindən diqqətlə yanaşılmış, yeni normativ-hüquqi aktlar qəbul edilərək mövcud təcrübənin yaxşılaşdırılmasına xüsusi önəm verilmişdir. Son illər regionların və muxtar respublikanın sosial-iqtisadi inkişafına dair, eləcə də ayrı-ayrı sahələrlə bağlı qəbul edilmiş Dövlət proqramlarında bələdiyyələr üçün müəyyən edilmiş tövsiyələr onların daha yaxşı səfərbər olmasına, yerli əhəmiyyətli məsələlərin həllində, abadlıq-quruculuq işlərində fəallıq göstərməsinə, işgüzarlıq meyillərinin artmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasında yerli özünüidarəetmə institutunun yaradılması və onlara verilən imtiyazlar da dövlətin öz xalqının rahat yaşayışını təmin etmək məqsədinə xidmət edir. Bu məqsədlə muxtar respublikamızda yerli özünüidarəetməni həyata keçirən bələdiyyə fəaliyyətinin inkişafına xüsusi qayğı ilə yanaşılır. Məlumat üçün bildirim ki, hazırda muxtar respublikada 170 bələdiyyə orqanı fəaliyyət göstərir ki, bunlardan da 6-sı şəhər,



8-i qəsəbə və 156-sı kənd bələdiyyəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən bu sahəyə də xüsusi diqqət və qayğı göstərilir. İlk növbədə, qeyd olunmalıdır ki, muxtar respublika rəhbərinin böyük əzmkarlıqla həyata keçirdiyi hərtərəfli abadlıq və quruculuq işlərindən bələdiyyələrə böyük pay düşmüş, onların fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmaları üçün lazımi infrastruktur formalaşdırılmışdır. Belə ki, ölkəmizdə yalnız muxtar respublika ərazisində fəaliyyət göstərən bütün bələdiyyə qurumlarına yeni üslubda tikilən şəhər, qəsəbə və kənd mərkəzlərində müasir iş şəraiti yaradılmış, bu gözəl inzibati binalarda onlara otaqlar verilmiş və avadanlıqlarla təmin edilmişlər.

Muxtar respublikada hərəkat halını almış abadlıq və quruculuq prosesində bələdiyyələr də öz imkanları çərçivəsində iştirak edirlər. Ali Məclis Sədrinin tapşırığı ilə 2017-ci ilin əvvəlindən etibarən kənd yaşayış məntəqələrində öz ərazi hüdudları daxilində məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətlərinin bələdiyyələr tərəfindən həyata keçirilməsinə başlanılıb və bu layihə uğurla davam etdirilir. Bu işlərin həyata keçirilməsinə bələdiyyə üzvləri ilə bərabər, bələdiyyə orqanları tərəfindən maliyyələşdirilən və bağlanılmış əmək müqaviləsi ilə işləyən işçilər də cəlb edilmişdir.

Ötən dövrdə kommunal xidmətlərin yaxşılaşdırılması, məişət tullantılarının vaxtında yığılaraq daşınması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, bələdiyyələr üçün müasir tələblərə cavab verən kommunal təyinatlı texnikalar alınaraq istifadəyə verilmişdir. Təkcə ötən il 2 dəfə bələdiyyə qurumlarına kommunal təyinatlı nəqliyyat vasitələri və xidməti minik avtomobilləri təqdim edilmişdir. Həmin texnikalar bələdiyyələrin işinin yaxşılaşdırılması ilə bərabər, əhaliyə göstərilən xidmətin də keyfiyyətinin yüksəldilməsinə imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2021-ci il noyabr ayının 19-da muxtar respublika bələdiyyələrinə yeni kommunal təyinatlı texnikaların verilməsi münasibətilə keçirilən tədbirdə demişdir: ***“Bələdiyyələr də fəaliyyətlərini qanunauyğun olaraq həyata keçirməlidirlər. Bələdiyyələr, sadəcə, yaradılmış formal təşkilat deyil, onlar seçilmiş təşkilatlardır. Ona görə də əhali ilə qarşılıqlı əlaqə qurulmalı, rayon icra hakimiyyətləri bələdiyyələrlə işə üstünlük verməli, işin səmərəliliyi artırılmalıdır. Bələdiyyələr bu gün dövlətin xalq tərəfindən seçilmiş orqanı kimi fəaliyyətlərini Azərbaycan Respublikasının müvafiq qanununa uyğun qurmalıdır”.***

Vətəndaşların dövlətlə daha sıx əlaqəsini təmin edən bələdiyyə idarəetməsi də əsas mahiyyəti etibarilə insan amilini ön plana çəkən, demokratik cəmiyyətlərə aid olan özünüidarəetmə institutudur. Bu gün dövlət dəstəyi ilə bələdiyyə qurumları bir sıra yerli layihələrdə, o cümlədən kənd yerlərində kənd investisiya layihəsi çərçivəsində həyata keçirilən işlərdə, kəhrizlərin bərpasında, kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarının işində, yerli ekoloji proqramların həyata keçirilməsində yaxından iştirak edir. Əlbəttə ki, ötən dövrdə bələdiyyə orqanlarının əksəriyyəti bir sıra sosialyönümlü işlər görmüş, əhalinin torpaq, su problemləri ilə yaxından maraqlanmış, su arxlarının qazılıb təmizlənməsi, xeyriyyəçilik, yolların abadlaşdırılması, yaşıllıq zolaqlarının salınması işində fəallıq göstərmişlər.

Ümumiyyətlə, bələdiyyələrin yerli əhalinin maraqlarını təmin etmək və bu sahədə səmərəli işləmələri üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılır. Bələdiyyələrin fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun təşkilinə kömək edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi bələdiyyələrə metodik köməklik göstərilməsi işini diqqət mərkəzində saxlayır. Nazirlik bələdiyyə üzvləri və qulluqçuları üçün mütəmadi olaraq maarifçilik tədbirləri təşkil edir, tədbirlərin səmərəli keçməsinə kömək etmək məqsədilə bələdiyyə orqanları müxtəlif mövzularda hazırlanmış sənədlərin nümunələrilə və digər metodik vəsaitlərlə, eləcə də onların ehtiyacları öyrənilərək zəruri hüquqi ədəbiyyatla təmin olunurlar.

Yerli özünüidarəetmə sahəsində qanunvericiliyin öyrənilməsi və düzgün tətbiq edilməsi, bələdiyyə əmlakının idarə olunması bələdiyyələrin əsas vəzifəsidir. Naxçıvan Muxtar Respublikasında aparılan torpaq islahatları, torpaq ehtiyatlarından istifadənin səmərəliliyini yüksəltməklə yanaşı, həm də əkinçiliyin inkişafına və məhsul bolluğunun yaranmasına səbəb olmuşdur. Xüsusən də kənd yerlərində torpaqlardan səmərəli istifadə edilməsində bələdiyyələrin, torpaq mülkiyyətçilərinin, icarəçilərinin öhdəsində qanunvericiliklə müəyyən olunan vəzifələr qoyulur. Torpaq ehtiyatlarından səmərəli istifadə ilə bağlı ardıcıl tədbirlər çərçivəsində aidiyyəti dövlət orqanları tərəfindən torpağın növünə və münbitliyinə görə səmərəli əkin aparılması məqsədilə muxtar respublikanın rayonları üzrə əkin atlasları tərtib edilmiş, torpaq xəritələri, kənd təsərrüfatına yararlı torpaq sahələrinin qida maddələri ilə təminolunma kartoqramları hazırlanaraq bələdiyyə orqanlarına təqdim olunmuşdur. Təbii ki, torpaqlardan səmərəli və təyinatı üzrə istifadə bu günümüzə deyil, həmçinin gələcəyimizə hesablanmış iqtisadi və sosial siyasətin tərkib hissəsidir. Ötən il may ayının 9-da muxtar respublika bələdiyyələrinə yeni kommunal



təyinatlı texnikalar verilməsi mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bildirmişdir: ***“Bu gün ölkəmizin bütün ərazisində yenidənqurma işləri aparılır, torpaqlar istifadə üçün vətəndaşlara verilir. Torpaqlar bələdiyyə, dövlət və şəxsi mülkiyyət olaraq formalaşıb. Buna görə də bələdiyyə mülkiyyətində olan torpaqlardan səmərəli istifadə olunmalı, əkilməli, icarə haqları və müqavilələri düzgün bağlanılmalıdır.”.***

Verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə Ədliyyə Nazirliyi də bu istiqamətdə bələdiyyə orqanları ilə gündəlik iş aparır, bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin ayrılmasında qanunvericiliyin tələblərinə riayət olunmasına nəzarət edir. Onlara bu sahədə nazirlik tərəfindən hazırlanan tövsiyə məktubları göndərir və zəruri metodik vəsaitlərlə təmin edir.

***Bir sözlə, muxtar respublikada bələdiyyələrin formalaşması, onların fəaliyyətinin artırılması və cəmiyyətimizə daha yaxından inteqrasiya edilməsi sahəsində dövlət dəstəyi fasiləsiz xarakter almışdır. Qeyd olunanları nəzərə alan bələdiyyə orqanları muxtar respublikanın ictimai-siyasi həyatında yaradılan işgüzar şəraitdən, aparılan saysız-hesabsız tikinti-quruculuq işlərindən özləri üçün nəticə çıxararaq həyatdakı mövqelərini möhkəmləndirməli, dövlətin və öz seçicilərinin etimadını qazanmaq üçün səy göstərməlidir.***

**Səttar ZAMANOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı,***
***Naxçıvan Dövlət Universitetinin müəllimi***

# Müxtəlif fəaliyyət sahələrinə uyğun aktivlər verilib



Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi publik hüquqi şəxs və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair imzalanmış memoranduma uyğun olaraq işlər davam etdirilir.

Proqrama uyğun olaraq dünən “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin öz vəsaiti hesabına Naxçıvan şəhər sakini Mehman Vəliyevə avtomobil şinlərinin təmiri məqsədilə, Babək rayonunun Naxışnərgiz kənd sakini Ramis Əliyevə və Qahab kənd sakini Minayə Əliyevaya isə dərzi fəaliyyəti üçün alınmış avadanlıqlar təqdim edilmişdir.

Qeyd edək ki, memoranduma əsasən agentliyin mərkəzlərinə müraciət edən sağlamlıq imkanları məhdud olan şəxslər, aztəminatlı ailələr, sosial qayğıya ehtiyacı olan şəhid və qazi ailələri barədə məlumatlar əsasında muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən müxtəlif fəaliyyət sahələrinə uyğun aktivlərin verilməsi nəzərdə tutulmuşdur. Proqram muxtar respublika üzrə, ümumilikdə, 50 aztəminatlı ailəni əhatə edir.

**Xəbərlər şöbəsi**

# Yeni nəşrlərin təqdimatı olub

*Naxçıvan Dövlət Universitetində Şirməmməd Qulubəylinin Azərbaycan və ingilis dillərinə dair kitablarının təqdimatı olub.*



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev ali təhsil ocağında professor-müəllim heyətinin yeni dəyərli metodik vəsait və kitab nəşrlərinin sayının artmasını yüksək qiymətləndirib. Diqqətə çatdırılıb ki, universitetin Xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Qulubəylinin “Müasir Azərbaycan dilində ismi funksional-semantik sahələr” monoqrafiyası və “İngiliscə-Azərbaycanca danışıq” kitabları daim yenilik tələb edən dil sahəsinə mühüm töhfə olaraq dəyərləndirilməlidir. Bildirilib ki, kitablar orta və ali məktəblərdə təhsilverən və təhsilalanların işini sadələşdirərək bu ixtisası daha asan mənimsəməyə yardımçı olacaq vasitədir.

Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru, filologiya üzrə elmlər doktoru Sədaqət Həsənova diqqətə çatdırıb ki, müəllif 256 səhifədən ibarət “Müasir Azərbaycan dilində ismi funksional-semantik sahələr” monoqrafiyasında Azərbaycan dilinin qrammatikasına aid önəmli məlumatlardan bəhs edib.

Roman-german dilləri kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Əli Allahverdiyev bildirib ki, monoqrafiyada bütün dil vasitələri tədqiqata cəlb olunub.

İngilis dili və tərcümə kafedrasının baş müəllimi Aidə Cəlilzadə yeni nəşrdə dilçilikdə sahə nəzəriyyəsi, mənsubiyyət kateqoriyasının Azərbaycan dilçiliyində və türkologiyada tədqiqinə dair və bir sıra mühüm mövzuların öz əksini tapmasından danışıb.

Dilşünaslıq ixtisası üzrə II kurs magistrant Lalə Rzayeva müəllifin gərgin əməyi sayəsində ərsəyə gələn kitabların tələbələr üçün çox faydalı olduğunu bildirib.

Sonda müəllif kitabların nəşrində göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# “Beynəlxalq sərgilərin turizmdə rolu” mövzusunda seminar keçirilib

*Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən muxtar respublikada fəaliyyət göstərən turizm sektoru nümayəndələri və turizm könüllülərinin iştirakı ilə “Beynəlxalq sərgilərin turizmdə rolu” mövzusunda seminar keçirilmişdir.*



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Statistika və sertifikatlaşdırma sektorunun müdiri Süleyman Rüstəmov bildirmişdir ki, beynəlxalq aləmdə muxtar respublikanın tanıdılması, turizm imicinin formalaşdırılması, turizm potensialının səmərəli təbliği və reklamı baxımından böyük əhəmiyyət kəsb edən sərgilərdə muxtar respublikanın iştirakı, qarşıya qoyulan məqsədə çatmaq üçün ən vacib vasitələrdəndir. Sərgilər zamanı respublikamıza olan marağın ildən-ilə artmasının şahidi oluruq. Sərgilərdə iştirak etmək xarici turistlərin muxtar respublikaya cəlb edilməsi məqsədi daşıyır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Statistika və sertifikatlaşdırma sektorunun aparıcı məsləhətçisi Ruslan Rəhimli çıxış edərək beynəlxalq sərgilərin turizmdə rolu haqqında iştirakçılara geniş məlumat vermişdir.

Sonra “Nəqşicahan Holdinq Şirkətlər Qrupu” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktor müavini Nəriman Qasımov çıxış edərək bildirmişdir ki, beynəlxalq turizm sərgiləri turizm potensialının tanıdılmasında, yeni müştərilərin qazanılmasında, ölkələr arasında ticarət və mədəni əlaqələrin inkişafının təmin edilməsində mühüm yer tutur. Məruzəçi sərgilərdə effektiv satış etmək üçün nəzərə alınmalı olan məsələlər haqqında iştirakçılara məlumat vermişdir.

Sonda mövzu ətrafında müzakirələr aparılmış, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin mətbuat xidməti***

# Uğurun təməl prinsipi: dövlətin diqqəti və yaradılan şərait

## Bir məqsəd uğrunda mübarizə aparan məşqçilərimiz

***Bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələr kimi idmanın da inkişafına böyük diqqət və qayğı ilə yanaşılır. Bunun nəticəsidir ki, idmançılarımız müxtəlif ölkədaxili və beynəlxalq turnirlərdə, yarışlarda muxtar diyarımızın idman ənənələrini layiqincə təmsil edirlər. “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı idmanın inkişafına bilavasitə təsir göstərib. İdmançılarımızla yanaşı, məşqçilərimizin də uğur qazanması, onların beynəlxalq seminar və treninqlərdə iştirakının təmin edilməsi gələcək nəslin sağlam və vətənpərvər ruhda tərbiyəsinin göstəricisidir. 5 mart – Bədən Tərbiyəsi və İdman Gününü qeyd etdiyimiz ərəfədə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya qərarı ilə ölkədə bədən tərbiyəsi və idmanın inkişafındakı xidmətlərinə və müvafiq idman növlərində tələb normalarını yerinə yetirdiklərinə görə bir sıra idmançılara və idman mütəxəssislərinə fəxri adları təsdiqləyən vəsiqə və döş nişanları təqdim edilib. Bu ada layiq görülənlər içərisində Naxçıvanın tanınmış məşqçi-müəllimlərinin də olması muxtar respublikada idmanın inkişaf səviyyəsini göstərir. Biz də, öz növbəmizdə, fəxri adlara layiq görülən məşqçilərin fikirlərini öyrəndik.***



Yetirmələri dəfələrlə Azərbaycan, beynəlxalq səviyyəli yarışların qalibi və mükafatçısı, həmçinin dünya çempionatının mükafatçısı olan ***Nəriman Quliyev*** 30 ildən çoxdur, karate idman növü ilə məşğuldur. 2008-ci ildən Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının baş məşqçisi olan 42 yaşlı mütəxəssis 5 mart – Bədən Tərbiyəsi və İdman Günündə “Azərbaycan Respublikasının Əməkdar məşqçisi” fəxri adına layiq görülüb: “Ulu öndərimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrdə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirib, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalıb. Bu gün bu siyasət ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına xüsusi diqqət və qayğı ilə yanaşılır, gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. Hamıya məlumdur ki, idmanda böyük nəticələr güclü hazırlıq tələb edir və bu proses fasiləsiz olmalıdır. Ən əsası, yüksək hazırlıq keçmək üçün əlverişli, müasir tələblərə cavab verən infrastruktur yaradılmalıdır. Bu gün idmançılarımızın təlim-məşq toplanışları keçirmələri, eyni zamanda beynəlxalq yarışlarda iştirak etmələri, habelə idmanla məşğul olmaları üçün Naxçıvanda mükəmməl şərait yaradılıb. Biz də, öz növbəmizdə, yaradılan bu şəraitdən istifadə edib istedadlı idmançıları üzə çıxarmağa çalışırıq. Əməkdar məşqçi adına layiq görülməyim isə həm də böyük məsuliyyətdir. İndi daha əzmlə çalışıb bu etimadı doğrultmağa və Naxçıvan idmanı üçün istedadlı idmançıların yetişməsinə çalışacağam”.

40 ildir, şahmatla məşğul olan ***Elmira Novruzova*** idmançı kimi muxtar respublikada keçirilən bir sıra yarışların, o cümlədən ölkə birinciliklərinin, beynəlxalq turnirlərin qalibi olub: “Zəka oyununa marağım uşaqlıqdan yaranıb. Uğurlu nəticələrdən sonra 1991-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının şahmat şöbəsini bitirdim və elə həmin ildən etibarən bu idman növü üzrə məşqçi-müəllim kimi çalışmağa başladım. 30 illik pedaqoji fəaliyyətimdə bir çox tələbəm ölkədaxili yarışların, turnirlərin mükafatçısı olub, Avropa birinciliyində mübarizə aparıblar. Hazırda Naxçıvan Şəhər Uşaq-Gənclər Şahmat Məktəbində və 12 nömrəli tam orta məktəbdə bu idman növünü tədris edirəm. Bir çox istedadlı uşaqların olması bizi sevindirir, onlarla çalışmaq şahmata olan yanaşmamızda məsuliyyəti daha da artırır. Eyni zamanda bu gün muxtar respublikada şahmatın inkişafı üçün hər bir imkan yaradılıb, müasir infrastruktur qurulub. Bu da uşaqların şahmata marağına xeyli təsir göstərir. Naxçıvan Şahmat Federasiyası məşqçi-müəllimlərlə daim yaxından maraqlanır, bizimlə fikir mübadiləsi aparılır, təkliflərimiz dinlənilir. Təbii ki, bunlar olan halda istənilən idman növü inkişaf edəcəkdir. Biz də, öz növbəmizdə, çalışırıq ki, göstərilən diqqətin nəticəsi olaraq uğur qazanaq. Çox şadam ki, mənim əməyim belə yüksək qiymətləndirilib və “Azərbaycan Respublikasının Əməkdar məşqçisi” fəxri adına layiq görülmüşəm. Bu, Naxçıvan şahmatına, federasiyamıza, şahmatçılara və məşqçilərə verilən dəyərin nəticəsidir. Göstərilən bu etimada görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm”.



“Azərbaycan Respublikasının Əməkdar məşqçisi” fəxri adı ilə təltif olunan digər bir idmançımız ***Seymur Məmmədov*** 20 ilə yaxındır, məşqçi-müəllim kimi Uşaq-Gənclər İdman Məktəbində çalışır. Tələbələri Azərbaycan və güləş üzrə uşaqların dünya çempionu adını qazanan məşqçinin böyük arzusu var: “Naxçıvanda istər məşqçilər, istərsə də idmançılar üçün hər bir şərait yaradılıb. Bundan bəhrələnmək, uğur qazanmaq isə bizim əsas vəzifə borcumuzdur. İdmana göstərilən diqqəti hər zaman hiss etmişik və bunun nəticəsi kimi yetirmələrimiz keçirilən beynəlxalq turnirlərdə ölkə bayrağını layiqincə dalğalandırıblar. Bu, biz məşqçilər üçün fəxrdir. Çünki hər bir məşqçinin ən böyük arzusu tələbəsini fəxri kürsüdə görməkdir. Ən böyük arzum məktəbimizin yetirməsinin muxtar respublika olimpiya qızılı ilə qayıtmasıdır. Qısa vaxt kəsiyində bunun reallaşacağına inanıram. Bu ada layiq görülməyim isə təkcə mənim yox, Güləş Federasiyasının uğurudur. Bir daha göstərilən diqqət və qayğıya görə bütün məşqçilər adından muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm”.





“Azərbaycan Respublikasının Əməkdar məşqçisi” fəxri adı ilə mükafatlandırılan ***Nəriman Əliyev***in yetirmələri dəfələrlə Azərbaycan birinciliklərinin mükafatçısı olublar. Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbində çalışan məşqçinin fikrincə, Naxçıvan Muxtar Respublikasında idmana dövlət tərəfindən göstərilən diqqət və qayğı nəticəsində məşqçi olmaq şərəfli bir peşəyə çevrilib: “Məşqçisi olduğum boks bölmələrinə uşaq, yeniyetmə və gənclərin mütəmadi axını onu göstərir ki, onlar idmanla müntəzəm məşğul olmaq istəyirlər. Sağlam cəmiyyət hər bir ölkənin strateji məqsədidir. Əlbəttə ki, dövlət gənclərin idmanla məşğul olmaları üçün xüsusi siyasət həyata keçirir. Bu mənada, hər bir azərbaycanlının idmana maraq göstərməsi və idmanla məşğul olması dövlətimizin diqqət mərkəzindədir və idmanın kütləviliyi təmin edilərək ölkədə sağlam nəsil formalaşdırılır. Bu nəsil isə Vətənimizin sağlam gələcəyi deməkdir. Ümummilli liderimiz Heydər Əliyev idmanın inkişafına çox böyük diqqət ayıraraq hər zaman bədən tərbiyəsinin inkişafı üçün görülən işlər, gələcəkdə görəcəyimiz işlərin dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu vurğulamışdır. Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı üçün hər bir şərait yaradılıb və bu inkişaf sistemli xarakter daşıyır. İdmançılarımız möhkəm iradəli olmaqla yanaşı, həm də vətənpərvərlik ruhunda böyüyür, beynəlxalq arenalarda Vətən sevgisi ilə mübarizə aparırlar. Uğurlarımız isə hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Məşqçilər adından bütün uğurlarımızı daim diqqətdə saxlayan muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm”.

*Göründüyü kimi, bu gün Naxçıvanda idman hərəkatının idarə olunması günün tələbləri səviyyəsindədir: müasirləşən və təkmilləşdirilən idman qurumlarının sayı artırılır, idmançı və məşqçi kontingenti çoxalır, müəyyən qurumların idmanla bağlı fəaliyyətləri gücləndirilir. Əlbəttə, bu prosesin daha da geniş vüsət alması üçün dövlət üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir. İndi əsas iş məşqçi-müəllimlərin üzərinə düşür – onlar isə idmanın kütləviləşməsi, istedadlı idmançıların üzə çıxarılması və bu sahənin təbliğinə öz töhfələrini vermək üçün səy və bacarıqlarını əsirgəmirlər.*

**Ceyhun MƏMMƏDOV**

## Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin maarifləndirilməsi diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı növbəti maarifləndirici tədbir keçirilib.*



Xidmətin baş inspektoru Elnur Zellabdinov bildirib ki, davamlı və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən uğurlu siyasət, nəticə etibarilə, miqrantların Naxçıvan Muxtar Respublikasına olan marağını və müxtəlif məqsədlərlə səfəretmə niyyətini daha da artırıb. Diqqətə çatdırılıb ki, bu gün diyarımıza səfər edən əcnəbilərin sırasında daha uzunmüddətli niyyətlərlə yaşamaq istəyənlər də vardır.

Elnur Zellabdinov miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə mövcud qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət məsələsinə də toxunaraq slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib. Vurğulanıb ki, muxtar respublikada əcnəbilərin hüquq və azadlıqlarına, onların qanuni mənafelərinin etibarlı təminatına xüsusi diqqət və həssaslıqla yanaşma miqrasiya sahəsində aparılan dövlət siyasətinin əsas tərkib hissəsidir. Qeyd olunub ki, Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz miqrasiyaya qarşı mütəmadi olaraq səmərəli və effektiv mübarizə tədbirləri həyata keçirilir, yarana biləcək problemlərin vaxtında aşkarlanması və qarşısının alınması istiqamətində operativ addımlar atılır.

Sonra xidmət tərəfindən hazırlanan maarifləndirici bukletlər paylanılıb.

Tədbir qarşılıqlı diskussiya şəraitində davam etdirilib, əcnəbilərin Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanı və Muzeyinə ekskursiyası təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

### Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin fevral ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3588 | 305,0 | 305,0 | 100,0 |
| 2. | Şərur rayonu | 1781 | 145,7 | 145,7 | 100,0 |
| 3. | Babək rayonu | 1547 | 127,6 | 127,6 | 100,0 |
| 4. | Ordubad rayonu | 723 | 60,1 | 60,1 | 100,0 |
| 5. | Culfa rayonu | 820 | 68,4 | 68,4 | 100,0 |
| 6. | Kəngərli rayonu | 630 | 53,3 | 53,3 | 100,0 |
| 7. | Şahbuz rayonu | 388 | 33,3 | 33,3 | 100,0 |
| 8. | Sədərək rayonu | 223 | 18,2 | 18,2 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12684 | 1285,8 | 1293,7 | 100,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **22384** | **2097,4** | **2105,3** | **100,4** |

**Qeyd:** Fevral ayında texniki itki nəzərə alınmaqla verilən 22 milyon 384 min kilovat/saat elektrik enerjisinin dəyəri 2 milyon 97 min 400 manat olmuş, cəmi 2 milyon 105 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,4 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin fevral ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 811434 | 106890 | 106903 | 100,0 |
| 2. | Ordubad rayonu | 1874890 | 234640 | 234663 | 100,0 |
| 3. | Babək rayonu | 4170331 | 536100 | 536146 | 100,0 |
| 4. | Naxçıvan şəhəri | 4624823 | 602903 | 602952 | 100,0 |
| 5. | Şərur rayonu | 3425977 | 426486 | 426512 | 100,0 |
| 6. | Culfa rayonu | 1911149 | 238819 | 238827 | 100,0 |
| 7. | Sədərək rayonu | 534932 | 65852 | 65853 | 100,0 |
| 8. | Kəngərli rayonu | 1446491 | 178689 | 178689 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12892761 | 2669871 | 2568190 | 96,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31692788** | **5060250** | **4958735** | **98,0** |

***İtmişdir***

Şərur rayonunun Yuxarı Aralıq kəndində yaşamış Tağıyev Abbas İbrahim oğlunun adına verilmiş JN-141 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 229